**Rüxsarə Seyfullalı**
**Azərbaycan Texniki Universiteti**
**"İqtisadiyyat və statistika" kafedrası, dissertant**
**E-mail:rukhsara.seyfullali@aztu.edu.az**
**UOT: 336.1; Jel: H11, O23, G18.**

# Azərbaycanda dövlətin emal sektorunun inkişafı siyasətinin təkmilləşdirilməsi istiqamətləri

***Xülasə***

*Tədqiqatın məqsədi - Azərbaycanın emal sektorunun inkişafı üçün aparılan dövlət siyasətinin təkmilləşdirilməsinə dair tövsiyələri təqdim etməkdir. Tədqiqatda müqayisəli təhlil və məntiqi ümumiləşdirmə yanaşmalarından istifadə edilmişdir. Dövlətin iqtisadi proseslərə müdaxiləsi ilə bağlı aparılmış araşdırmalar tədqiqatın informasiya bazasını təşkil etmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələri Azərbaycanda emal sənayesinin inkişafına yönələn dövlət siyasətinin təkmilləşdirilməsində elmi mənbə kimi istifadə edilə bilər. Tədqiqat nəticəsində dövlətin sənaye siyasətinin əsas prinsipləri ümumiləşdirilmiş və onların əhəmiyyəti qeyd edilmiş, inkişaf etməkdə olan ölkələrdə emal sektorunun inkişafının dövlətin müdaxiləsi olmadan qeyri-mümkünlüyü əsaslandırılmış, eləcə də dövlətin fiaskosu hallarının təsirinin azaldılması istiqamətində irəli sürülən tövsiyələr ümumiləşdirilmişdir. Tədqiqatın elmi yeniliyi və orijinallığı onunla bağıdır ki, mövcud nəzəri bazanın müasir prizmadan tədqiqi əsasında Azərbaycanda dövlətin sənaye (emal) siyasətinin səmərəli nəticələrə gətirməsi üçün biri-birilə əlaqələndirilmiş təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *dövlət tənzimlənməsi, dövlətin sənaye siyasəti, bazarın və dövlətin uğursuzluqları*

## Giriş

Qloballaşan dünyada özünün müqayisəli üstünlüklərini tapmaq və bu üstünlüyü olan sahələrdə ixtisaslaşmaq inkişaf etməkdə olan ölkələr üçün arzu edilən vəziyyətdir. Bəs bu səviyyəyə necə çatmaq olar? Bu sualın cavabı milli iqtisadiyyatı karbohidrogen hasilatından asılı vəziyyətdə olan Azərbaycan üçün xüsusi aktuallığı ilə seçilir. Müasir dünyanın inkişaf etmiş ölkələrində milli iqtisadiyyatların strukturuna diqqət yetirsək, həmin ölkələrin hər birində güclü emal sektorunun mövcud olduğunu görə bilərik. Əbəttə, postindustrial cəmiyyətlərdə xidmət və maliyyə sektorlarının ÜDM-də payının artması meyillərini də qeyd etməliyik. Lakin, qeyd etdiyimizi hər iki sektorun real sektorda yaranan yeni tələbatlara reaksiya verməklə inkişaf etməsi də danılmaz faktlardandır. Güclü emal sektorunun mövcudluğu ölkədə müvafiq elmi potensialın, müasir insan resurslarının və texnologiyaların varlığının əlaməti kimi də qəbul oluna bilər. Qeyd etdiyimiz amillər isə mili iqtisadiyyatların rəqabət qabiliyyətinin əsas müəyyənedicilərindən hesab olunur. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edimiş beş əsas prioritetin məzmununda Azərbaycanın emal sektoru əsas yerlərdən birini tutur. Bu prioritetlərə nail olunması üçün emal səanyesində elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı əsas istiqamətlərdən biri kimi müəyyən edimişdir. İqtisad elmində həm bazarın, həm də dövlətin tənzimləyici mexanizmlər olaraq uğursuzluqlarına dair çoxsaylı nümunələr, nəzəri və praktiki sübutlar mövcuddur. Bu məsələ inkişaf etməkdə olan və yoxsulluq problemini azaltmaq istəyən üçüncü dünya ölkələri üçün xüsusi önəm daşıyır. Dünyanın inkişaf templərindən geri qalmamaq, eləcə də ölkələr, regionlar və insanlar arası

bərabərsizliklərin azaldılması üçün iqtisadi tənzimləmədə hansı mexanizmə üstünlük verilməlidir? Bu sualın cavabını mürəkkəbləşdirən iki amil xüsusilə qeyd edilməlidir:

- iqtisad elmində bazar və dövlət tənzimlənməsinin bir-birini tamamlaması və təkmilləşdirilməsi üçün yekdil nəzəriyyənin hələ də formalaşmaması;
- müasir qloballaşma prosesləri nəticəsində iqtisadiyyatın dövlət tənzimlənməsi qarşısında keyfiyyət və mürəkkəblik dərəcəsinə görə tamamilə yeni tələblərin meydana çıxması.

Dövlətin cəmiyyətdə, onun inkişafında rolu barədə suallar alimləri Aristotel və Platonun dövründən başlayaraq bu günə qədər düşündürür. Bu sual iqtisad elmində də onun formalaşmağa başadığı XVI əsrdən indiyədək aktuallığını saxlayır. Son yüz ildə bir sıra iqtisadçıların əsərlərində qeyd edilən sualın cavabı üçün kifayət qədər sanballı və elmi əsaslandırılmış arqumentlər tapmaq olar [1,2,12,13,15,16]. Lakin hər bir ölkənin özünəməxsus xüsusiyyətləri, inkişafın müxtəlif səviyyələrində olmaları, resurs təminatı və institusional fərqləri bu məsələnin həllinə ümumi yanaşmanı mümkünsüz edir. Buna görə də, emal sektorunun inkişafına yönələn dövlət siyasətinin bir ölkədə möhtəşəm uğura (Cənubi Koreya, Sinqapur, Çin və s.), digərində isə fiaskoya (Latın Amerikası ölkələri və b.) gətirməsinə dair çoxsaylı nümunələri görmək mümkündür. Emal sənayesi iqtisadiyyatın əlavə dəyəri yaradan əsas sahələrindən biri olmaqla yanaşı, həm də elm, təhsil, İKT və digər sektorlar üçün kəmiyyət və keyfiyyət baxımından daha böyük tələbatın yaradıcısı funksiyasını daşıyır. Bu kontekstdə, dövlətin sənaye siyasətinin uğurlu olması üçün zəruri olan şərtlərin ümumiləşdirilməsi tədqiqatın əsas məqsədi kimi qəbul edimişdir. Aparacağımız tədqiqatın nəticələri Azərbaycanın emal sənayesinin inkişafına yönələn dövlət siyasətinin səmərəliliyinin və nəticəliliyinin yüksəldilməsi üçün faydalı ola bilər.

**Azərbaycanın emal sənayesində mövcud vəziyyət**

Ölkəmizin ema sektorunun mövcud vəziyyətinin ümumi mənzərəsini göstərmək üçün Azərbaycanın qeyri-neft sektorunda fiziki kapitalın və ÜDM-in sahələr üzrə bölgüsünə diqqət yetirək. 1 saylı diaqramdan göründüyü kimi, qeyri-neft sektorunda fiziki kapitalın ümumi dəyəri 2005-2020-ci illər ərzində 5 dəfə artmışdır. Emal sektorunda da artım müşahidə edilsə də, onun artım templəri nəqliyyat və rabitə, enerji istehsalı (elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı), tikinti və digər sektorların artım templərindən geri qalır.

**Diaqram 1.**

**Qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsü (milyon manat)**




Mənbə: www.stat.gov.az

Bunun nəticəsidir ki, emal sektorunun fiziki kapitalının qeyri-neft sektorunun fiziki kapitalında payı 2005-ci ildəki 17%-dən xeyli aşağı düşmüş və 2015-ci ildən bu tərəfə 10%-lik səviyyəni aşmamışdır.

**Diaqram 2.**

**Qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsü (%)**




Mənbə: www.stat.gov.az

**Diaqram 3.**

**Qeyri-neft ÜDM-in sahələr üzrə bölgüsü (%)**




Mənbə: www.stat.gov.az

Diaqram 3-dən göründüyü kimi, emal sektorunun qeri-neft ÜDM-də payı 2006-cı ildən bu tərəfə 10%-lik səviyyəni aşmamışdır. Ticarət və təmir, tikinti, nəqliyyat və rabitə sektorlarının inkişaf templərinin artması fonunda emal sektorunun belə nəticələri dövlətin sənaye siyasətinin təkmilləşdirilməsinə zərurətin olduğunu deməyə əsas verir. Gündəlik məişətimizdə istifadə etdiyimiz və ticarət obyektlərində satılan malların mənşə ölkələrinə diqqət yetirsək, görərik ki, hətta ən adi emal məhsullarının böyük qismi ölkəyə idxal olunur. Qeyd edilənlərə əsasən, ölkəmizin emal sektorunun mövcud vəziyyəti barədə aşağıdakı mülahizələri irəli sürə bilərik: Azərbaycanın emal sənayesinin qənaətbəxş vəziyyətdə olmadığı birmənalı qəbul olunur.

⇨ Yüksək resurs gəlirləri ölkədə ticarət, tikinti, xidmət və infrastruktur (*non-tradable goods*) kimi sahələrin cəlbediciliyini artırmqla azad sahibkarları bu sahələrə yönəldir.

Nəticədə, kapital, elm və əmək tutumu daha böyük və güclü xarici rəqibləri olan emal sahələri (*tradable goods*) sahibkarlara daha yaxşı seçimi təqdim edə bilmir.

- Sovetlərdən qalan və bu gün də yaşayan istehlak mədəniyyətimiz xarici mallara daha çox üstünlük verir.
- Beləliklə, Azərbaycanın emal sektoru aşağı səviyyəli mövcudluğun "qapalı dairəsi"ndə yoluna davam edir.

**Emal sektorunun inkişafına yönələn dövlət siyasətinin əsas məslələri**

Emal sektorunun dövlət tənzimlənməsi mexanizminin vəziyyəti ilə bağlı aşağıdakı fikirləri qeyd edə bilərik:

- Azad bazar kiçik tutumlu və təbii resurslarla zəngin ölkələrdə müasir emal sektorunun formalaşması üçün yaxşı mexanizm deyil. Azərbaycanın emal sektorunun mövcud vəziyyəti bu fikri əsaslandırmaq üçün yaxşı arqumentdir.
- Emal sektorunun dağıdıcı durğunluqdan çıxarılması üçün təbii bazar mexanizmi işləmirsə, o halda dövlət tərəfindən edilə biləcək "təkan" zərurətə çevrilir.
- İqtisadi tənzimləmədə dövlətin fiaskosu halları dünya təcrübəsində çox geniş yayılıb və Azərbaycanda da belə hallar müşahidə edilir. Son 30 ildə dövlət emal sektorunun inkişafı üçün bir çox tədbirlər həyata keçirmişdir. Lakin əldə edilən nəticələr hələ də arzu edilən səviyyəyə yaxınlaşmayıb.
- Dövlət orqanları, biznes və cəmiyyət arasında mövcud olan güclü informasiya asimmetriyası, korrupsiya və qeyri-şəffaflıq hallarının mövcuduğu, tənzimləyici qərarların qəbulunda iştirak edən məmurların biznesin real problemlərindən uzaqlığı kimi amillər dövlətin tənzimləmə mexanizminin keyfiyyətinə ciddi xələl gətirir.
- Dövlət tənzimləməsinin nəticəli olması üçün tənzimləyici institutların özünün keyfiyyəti yüksəlməlidir. Amma bunu necə etməli? "Yaxşı institutlar" və "iqtisadi artım" arasında səbəb-nəticə əlaqələrinin istiqaməti və təbiəti isə iqtisad elmində hələ də ciddi müzakirə mövzusu kimi qalır. Yaxşı tənzimləyici institutların formalaşması prosesini gələcək tədqiqatlar üçün yaxşı mövzu kimi qəbu edə bilərik.
- Dövlət orqanları, məktəb, peşə, orta və ali təhsilli müəssisələri və sahibkarlar arasında çox ciddi informasiya asimmetriyasının mövcudluğu da şübhə doğurmur. Əks halda fərdi sahibkarların yaratdıqları hazırlıq kursları, müxtəlif peşələr üzrə ixtisaslaşan qısamüddətli sertifikatlı təlimləri bu qədər populyarlıq qazana bilməzdilər. Qeyd etdiyimizi özəl və çevik kursların sürətli inkişafı ölkədə dövlətin təqdim etdiyi orta məktəb, peşə və ali təhsil sisteminin əmək bazarının tələblərinə lazımi səviyyədə cavab verməməsinin əlamətlərindən biri kimi də qəbul edilə bilər.

Milli iqtisadiyyatın emal sektorunun gücləndirilməsi ilə təmin ediləcək restrukturizasiyası qarşısında dayanan bir neçə problemin üzərində dayanaq. Birinci problem həm dövlət orqanlarında, həm də özəl sektorda fərdi və ictimai baxımdan faydalı ola biləcək qərarların qəbuluna mane olan informasiya assimmetriyası ilə bağlıdır. Emal sektorunun inkişafı istiqamətində mövcud olan əsas maneələrin müəyyən edilməsi və aradan qaldırılması üçün özəl sektorla dövlət arasında strateji əməkdaşlığın yaradılması mühim əhəmiyyət kəsb edir. Buna görə də, Dani Rodrik təklif edir ki, dövlətin sənaye siyasətinin təhlili təkcə onun əvvəlcədən məlum olmayan nəticələri üzərində deyil, bu siyasi prosesin düzgün qurulması istiqmətində də aparılmalıdır [12,13]. Özəl sektorun real tələbatlarının və problemlərinin, eləcə də dövlətin dəstək imkanları və məhdudiyyətlərinin qarşılıqlı surətdə öyrənilməsi daha vacib məsələdir. Bu məsələ "dövlətin tənzimləyici alətlərindən hansılar sənaye siyasətində daha səmərəlidir" sualından da əhəmiyyətlidir. Tənzimləmə alətlərindən olan məqsədli

kreditləşdirmə yaxşı nəticə verir, yoxsa elmi tədqiqatların maliyyələşdirilməsi? Hətta tənzimləmə üçün prioritet sahələrin (hansının dəstəklənməsi milli iqtisadiyyata daha böyük inkişaf impulsu verə bilər - maşınqayırma sənayesi, yoxsa İKT sektoru?) müəyyən edimәsi məsələsi də qeyd etdiyimiz proseslə müqayisədə ikinci dərəcəli hesab oluna bilər. Əgər ölkədə özəl sektor və dövlət biri-birilərinin imkan və məhdudiyyətləri barədə aydın təsəvvürə malik olsalar və bu istiqamətdə aparılmalı olan strateji koordinasiyada birgə iştirak edərlərsə, onda qeyd etdiyimiz sualların cavabları üçün çox aydın və dəqiq arqumentlər meydana gələ bilər. Qərarların qəbulunda informasiya assimmetriyası həm dövlət orqanlarında, həm də özəl sektorda mövcud olur. Özəl sektor-dövlət tərəfdaşlığı məhz qeyd etdiyimiz informasiya assimmetriyasının azaldılması və daha yaxşı qərarların qəbulu üçün zəruri şərt hesab oluna bilər [4, 9,10,11].

İqtisadiyyatın restrukturizasiyası qarşısında dayanan ikinci maneə özəl sektor tərəfindən emal sektorunda innovasiyalara tələbatının azlığıdır [4,5,12]. Milli iqtisadiyyatın şaxələnməsi və istehsal amillərinin məhsuldarlığının artması yalnız innovasiyalar nəticəsində mümkündür. Texnologiyaların geniş yayıldığı müasir dünyada innovasiyaların yaradılması və istehsalı o qədər də çətin deyil. Tədqiqatçı alimlərin və mühəndislərin çatışmazlığı, mülkiyyət hüquqlarının yaxşı qorunmaması kimi amillər innovasiyaların sahibkarlar üçün cəlbediciliyi və yaxud özəl sektorun innovasiyalara tələbatının məhdudluğu ilə müqayisədə daha asan həll olunan problemlərdir. Sahibkarların innovasiyalara tələbatının azlığı isə iki səbəblə izah oluna bilər: ökədə daha asan, riskləri və resurs tutumu daha az, amma xalis gətirilmiş dəyəri daha yüksək olan ənənəvi fəaliyyət növlərinin (ticarət, tikinti, xidmət və s.) mövcudluğu; emal sektorunda innovasiyaların rentabelliyinin aşağı olması. Özəl sektorun innovasiyalara tələbatının azlığı keyfiyyətli təhsilə və elmi-tədqiqatlara da tələbatı məhdudlaşdırmaqla dövlətin bu istiqamətdə həyata keçirdiyi tənzimləyici tədbirlərin iqtisadi səmərəliliyini azaldır.

Milli iqtisadiyyatın şaxələnməsində sənaye siyasətinin əhəmiyyəti nədir? Bir çox ölkələrdə iqtisadiyyatın şaxələnməsi və təmərküzləşməsi proseslərinin tədqiqi göstərmişdir ki, kasıb ölkə varlandıqca (adambaşına gəlir artdıqca) istehsalın sahə quruluşunun və məşğulluğun təmərküzləşməsi azalır, iqtisadiyyatın şaxələnməsi isə artır. Gəlirlərin səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşdıqdan sonra isə əks proseslər - ölkənin bir neçə sahə üzrə ixtisaslaşması və iqtisadiyyatın həmin sahələr üzrə təmərküzləşməsi baş verir [7]. Bu nəticələr bizə istehsal amillərinin aqrar sektordan emal və xidmət sektorlarına doğru axınının gəlirlərin artımı ilə güclənməsini göstərir (sektorun ümumi iqtisadiyyatda payının işçilərin ümumi məşğulluqda və yaxud əlavə edilmiş dəyərdə payı ilə ifadə edimәsindən asılı olmayaraq). Ölkənin ixtisaslaşma səviyyəsinin yüksəlməsi isə adambaşına gəlirin kifayət qədər yüksək səviyyəyə çatdığı halda güclənməyə başlayır [2]. Buradan belə nəticə çıxır ki, emal sektorunun müəyyən sahələri üzrə ixtisaslaşma yalnız yüksək gəlirli ölkələrin imkanı daxilindədir. Az gəlirli ölkələrin bu istiqamətdə uğur qazanması isə yalnız adambaşına gəlirin artımı nəticəsində mümkündür. Əlbəttə, burada adambaşına gəlirin artımı ilə emal sahələri üzrə ixtisaslaşma səviyyəsi arasında səbəb-nəticə əlaqələrinin təbiəti, bu əlaqələrin istiqaməti barədə çoxlu suallar meydana çıxa bilər. Gəlirlərin bölgüsündə bərabərsizliyin qeyd edilən əlaqələrin təbiətinə necə təsir etməsi də mühim suallardan hesab oluna bilər. Klinqer və Ledermanın hesablamaları göstərir ki, ixrac edilən yeni məhsul növlərinin sayı da çevrilmiş U tipli gəlir əyrisinə uyğun gəlir [8]. Nə üçün bəzi ölkələr öz iqtisadiyyatlarını asanlıqla şaxələndirə və ənənəvi iqtisadiyyatdan sənayeləşmiş iqtisadiyyata keçə bilir, digərləri isə bu

məsələdə uğur qazana bilmir? Və yaxud sualı belə də qoymaq olar: Şaxələnmə niyə təbii proses deyil və ona necə asanlıqla nail olmaq olar?

Gəlin elə bir ölkəni təsəvvür edək ki, orada korrupsiya yox səviyyəsindədir, hökumətdə peşəkar mütəxəssislər çalışır, makroiqtisadi sabitlik tam təmin edilib, ticarət məhdudiyyətləri və dövlətin müdaxiləsi çox zəifdir, mülkiyyət hüquqları qorunur, müqavilələrin icrası təmin edilir. Qeyd edilənlər dövlətin fiaskosu hallarını aradan qaldırmaq üçün zəruri şərtlərdir [1, 14,15]. Bu halda qeyri-ənənəvi iqtisadiyyatın inkişafını təmin edəcək sahibkarlıq fəaliyyəti lazımi səviyyədə olacaqmı? Bu sualın “yox” cavabı üçün ciddi arqumentlər var. Bazar qiymətləri resursların baş verməmiş bölgüsünün mənfəətliliyini müəyyən edə bilməz. Hələ 100 il bundan əvvəl Şumpeter innovasiyaların yarandığı ilk dövrlərdə bazar qüvvələrinin yenilikçi sahibkarı dəstəkləmədiyini, əksinə ona əks istiqamətdə təsir göstərdiyini qeyd edirdi. Yalnız hakimiyyətə, rəqabətdə uğura və yaradıcılıq sevincinə çox güclü tələbatı olan sahibkarlar bu qüvvələrin əksinə getməyə cəsarət tapır. Belə sahibkarların əksəriyyəti bazar qüvvələri ilə mübarizədə məğlub olur, çox az qismi isə bazar tərəfindən qəbul olunduqdan sonra sürətli artım mərhələsinə daxil ola bilir. Buna görə də, qeyri-ənənəvi sahələrə investisiyaların taleyi çox dumanlı və riskli xarakter daşıyır. Bu problem sahibkarlığın “informasiya” və “koordinasiya” xarakterli təsirlərdən yaranır. Hər iki təsirin bazar mexanizmi tərəfindən aradan qaldırılması sadəcə mümkün deyil. Deməli iqtisadiyyatın şaxələnməsi və ölkədə emal sektorunun təşəkkülü dövlətin müdaxiləsi olmadan çətin ki alınsın.

**Dövlətin sənaye siyasətinin əsas prinsipləri**

Qeyd etdiyimiz kimi, hər ölkənin özünəməxsusluğu qeyri-ənənəvi iqtisadiyyata keçid üçün vahid resseptin olmadığını əsaslandırmaq üçün çox güclü arqumentdir. Amma iqtisadi ədəbiyyatda sənaye siyasətinin hazırlanması üçün ümumi prinsiplər təklif edilmişdir [12]:

- Yalnız yeni fəaliyyət növlərini dəstəkləmək lazımdır. Sənaye siyasətinin əsas məqsədi iqtisadiyyatın şaxələnməsinə və yeni müqayisəli üstünlüklərin qazanılmasıdır. Buna görə də dəstəkləmə tədbirləri daxili bazar üçün yeni olan emal sahələri (yeni məhsul, yeni texnologiya və s.) üçün həyata keçirilsə yaxşı olar. Qeyd edilməlidir ki, bu siyasət kiçik və orta müəssisələrin dəstəklənməsi siyasətindən fərqlənir. KOB-ların dəstəklənməsi siyasəti ölçü meyarı üzərində qurulur, lakin belə müəssisələrin iqtisadiyyatın strukturunu dəyişəcək fəaliyyətdə növlərini inkişaf etdirəcəyi məlum deyil.
- Uğurun və uğursuzluğun dəqiq meyarları müəyyən edilməlidir. Sənaye siyasəti eksperiment xarakteri daşımalıdır. Sahibkarlıq fəaliyyətinin təbiəti elədir ki, yeni sahələrə investisiyaların hamısı uğurlu ola bilməz. Lakin uğurun nə olduğunu anlamadan, bu siyasətin nəticələrinin qiymətləndirilməsi də mümkün olmaz, dövlət dəstəyi alanlar uğursuz nəticələrə baxmayaraq bu dəstəyi almaqda, məmurlar isə özlərinə sərf edən proqramları davam etdirə bilərlər. Məhsuldarlığın müəyyən səviyyəsi, onun müəyyən artım tempi, ixracın həcmi və artım tempi yaxşı uğur meyarları olaraq qəbul edilə bilər.
- Dövlət dəstəyinin qüvvədə olma müddətinin əvvəlcədən müəyyən edilməsi. Dövlət resurslarının səmərəli olmayan sahədə qalmasının qarşısını almaq üçün dəstəyin mərhələli şəkildə dayandırılmasıdır.
- Dövlət dəstəyi hər-hansı sektora deyil, fəaliyyət növünə yönəlməlidir. Dəstəyin sektora yönəlməsi ünvanlılığı azaldır və bazar uğursuzluqlarının təsirlərini azaltmaqda səmərəsiz olur. Dövlət dəstəyi, xarici texnologiyaların yerli şəraitə uyğunlaşdırılması,

risk və vençur kapitalı, infrastruktur investisyaları kimi fəaliyyətlərə yönəlməsi daha yaxşı nəticələr verə bilər. Belə proqramların üstün cəhəti ondadır ki, onlar bir neçə sektoru əhat edir və bazar uğursuzluqlarını hamarlamağa yönəlir.

- Dəstəklənən fəaliyyət nümayiş edilmə və yanaşı effektlərinə malik olmalıdır. İqtisadi inkişafın zəncirvari reaksiyasının baş verməsi üçün dəstəklənən fəaliyyət digər fəaliyyət növlərinin inkişafı üçün də stimullar və üstünlüklər yaratmalıdır.
- Sənaye siyasətinin aparılması səlahiyyəti peşəkar heyəti olan (bu peşəkarlıq səviyyəsinin nümayiş etdirilməsi mümkün olmalıdır) dövlət qurumlarına verilməlidir. Nümunə üçün, əgər bank sektorunda yaxşı peşəkarlar çalışırlarsa və vergi orqanında isə peşəkarlıq səviyyəsi arzu edilən səviyyədə deyilsə, onda fəaliyyətin dəstəklənməsi üçün kredit alətləri daha yaxşı nəticə verər, nəinki vergi güzəştləri.
- Dövət dəstəyini icra edən qurumlar siyasi hakimiyyətin ən yüksək səviyyəsində təmsil olunan və nəticələrdə maraqlı olan prinsipialın ciddi nəzarəti altında fəaliyyət göstərməlidir. Hesabatlılıq və şəffaflıq dövlət qurumlarını şəxsi manafelərinə və özəl sektorun maraqlarına xidmət etməkdən yayındırmağa kömək edir.
- Dövlət dəstəyini həyata keçirən qurum özəl sektorla daim əlaqədə olmalı və real vəziyyət barədə obyektiv informasiyaya malik olmalıdır.
- Dəstəkləmə prosesində səhvlər, sapmalar da olacaq. Dəstəyin məqsədi belə uğursuzluqların minimuma endirilməsi deyil. Burada səhvlərlə bağlı xərclərin və əlavə səylərin azaldılması daha prioritet xarakter daşıyır. Əgər hökumət səhv etmirsə, deməli o kifayət qədər çalışmır.
- Dəstək tədbirləri daim yenilənmə imkanlarına malik olmalıdır. Sürətlə dəyişən dünyada dəstək proqramlarının çevikliyi və uyğunlaşma qabiliyyəti müstəsna əhəmiyyət kəsb edir.

**Nəticə**

Bazar uğursuzluqlarının əksəriyyəti obyektiv xarakter daşıyır və dövlət müdaxiləsindən asılı olmayaraq baş verir. İnkişaf etməkdə olan və dövət müstəqilliyini yaxın tarixdə qazanan (nümunə üçün keçmiş Sovet respublikaları) ölkələrdə emal sektorunun mövcud vəziyyəti bu ölkələrdə bazar iqtisadiyyatına keçidin, özəlləşdirmə və liberallaşdırma proseslərinin uğurlu nəticələrə gətirmədiyini göstərir. İqtisadi ədəbiyyatda dövlətin sənaye siyasətinin əleyhinə kifayt qədər arqumentlər var: Dövət bazarın qaliblərini müyyən edə bilmir; Peşəkar məmurlar ordusunun azlığı səmərəli sənaye siyasətinin aparılmasına mane olur; Sənaye sahələrinə dəstəkdə korrupsiya üçün mühit mövcud olur; Sənaye siyasətinin uğurlu nümunələri azdır; Sənaye siyasətinin əvəzinə intellektual mülkiyyətin qorunması və elmi-tədqiqatlara dəstəyin gücləndirilməsi daha yaxşı nəticələr verə bilər; Bu arqumentlər nə qədər əsaslı olsalar da, onların inkar edilməsi üçün də ciddi fikirlər var; Səhvləri (düzgün sahələrin və yaxud düzgün alətlərin seçilməməsi) yaxşı siyasətin ayrılmz atributu kimi qəbul etmək lazımdır (səhvlərin yaratdığı xərclərin müəyyən edilməsi mənasında); Peşəkar məmurların olduğu qurumlar sənaye siyasətini uğurla apara bilərlər; Dövlət siyasəti olmadan sənaye uğurlarını qazanmış ölkəni tapmaq mümkün deyil; İqtisadi ədəbiyyatda nə qədər inkar edilsə də, hətta inkişaf etmiş ölkələrdə də dövlətin sənaye siyasəti zəifləmir və emal sənayesi azad bazarın öhdəsinə buraxılmır. Azərbaycanın emal sənayesində inkişafın zəncirvari reaksiyasını yaratmaq üçün bu kimi məsələlərə diqqət artırılmalıdır: emal sənayesində müqayisəli üstünlüklərin (qlobal dəyər zənciri nəzərə alınmaqla) aşkarlanması üçün tədqiqatların (bu sahələrin mütəxəssisləri, sahibkarları və elm adamlarının iştirakı ilə) aparılması; prioritet sahələrin (neft-kimya, tikinti materialları və s.) seçilməsi; həmin sahələr üçün bir-birilə uzlaşdırılmış dəstəkləyici

tədbirlərin (vergi, gömrük, kredit, infrastruktur təminatı, elmi-tədqiqat, sınaq, laboratoriya və s.) tətbiq edilməsi; dəstəkləyici tədbirlərin ölçülə biləcək fəaliyyət göstəricilərilə əlaqələndirilməsi; həmin sektorlara ən yüksək səviyyədə siyasi dəstəyin verilməsi, sahibkarlarla dövlətin ən yüksək səviyyəsi arasında birbaşa əlaqə kanallarının yaradılması; aidiyyəti dövlət orqanlarının ən yüksək səviyyəli məmurlarının, sahibkarların, ali təhsil və elm müəssisələrinin rəhbərlərinin birgə iştirakı ilə aylıq və ya rüblük görüşlərin keçirilməsi vasitəsilə informasiya assimmetriyasının və digər subyektiv maneələrin aradan qaldırılması; dövlət dəstəyinin nəticəliliyinin qiymətləndirilməsi üçün monitorinq mexanizminin işlənməsi və tətbiqi; tənzimləmənin və onun nəticələrinin şəffaflığının təmin edilməsi; tənzimləmə mexanizminin daim təkmilləşdirilməsi və çevikliyin təmin edilməsi.

**Ədəbiyyat**

1. Acemoglu D., Robinson J. A. (2019). The narrow corridor: States, societies, and the fate of liberty. New York: Penguin Press.
2. Doner R. F., Schneider B. R. (2016). The middle-income trap: More politics than economics. World Politics, Vol. 68, No. 4, pp. 608—644. https://doi.org/10.1017/S0043887116000095
3. Faccio M. (2006). Politically connected firms. American Economic Review, Vol. 96, No. 1, pp. 369—386. https://doi.org/10.1257/000282806776157704
4. Falk R. (2007). Measuring the effects of public support schemes on firms innovation activities. Research Policy, Vol. 36, No. 5, pp. 665—679. https://doi.org/10.1016/j.respol.2007.01.005
5. Hausmann R., Hidalgo C. A., Bustos S., Coscia M., Chung S., Jimenez J., Simoes A., Yildirim M. A. (2014). The atlas of economic complexity: Mapping paths to prosperity. MIT Press.
6. Hausmann, Ricardo and Dani Rodrik, “Economic Development as Self-Discovery”, Journal of Development Economics, vol. 72, December 2003.
7. Imbs, Jean, and Romain Wacziarg, “Stages of Diversification,” American Economic Review, 93(1), March 2003, 63-86.
8. Klinger Bailey and Daniel Lederman, (2004). “Discovery and Development: An Empirical Exploration of ‘New’ Products,” World Bank, August.
9. Laffont J-J (2005) *Regulation and Development*, Cambridge: Cambridge University Press.
10. Montmartin B., Herrera M. (2015). Internal and external effects of R&D subsidies and fiscal incentives: Empirical evidence using spatial dynamic panel models. Research Policy, Vol. 44, No. 5, pp. 1065—1079. https://doi.org/10.1016/j.respol.2014.11.013
11. Newbery, D. (1999). Privatization, Restructuring and Regulation of Network Industries, Cambridge, Mass.: MIT Press.
12. Rodrik D. (2004). Industrial policy for the twenty-first century. KSG Working Paper, No. RWP04-047.
13. Rodrik D. (2005). Growth strategies. In: P. Aghion, S. N. Durlauf (eds.). Handbook of economic growth, Vol. Part A. Elsevier, pp. 967—1014. https://doi.org/10.1016/S1574-0684(05)01014-2
14. Shleifer A., Vishny R. W. (2002). The grabbing hand: Government pathologies and their cures. Harvard University Press.
15. Stiglitz, J. (1998). ‘Private Uses of Public Interests: Incentives and Institutions’, Journal of Economic Perspectives, 12(2): 3-22.
16. Поланьи, Карл, Великая трансформация. Политические и экономические истоки нашего времени. Пер.с англ. А.А.Василева, С.Е.Федорова и А.П.Шурбелева под.общ.ред. С.Е.Федорова. СПб.: Алтейя, 2002 – 320 с. (Pax Britanica).
17. Гоббс Т. (2017). Левиафан. М.: Рипол-Классик.

***Рухсара Сейфуллалы***
***диссертант кафедры «Экономика и статистика»***
***Азербайджанского Технического Университета***

***Вопросы совершенствования государственной политики развития обрабатывающей отрасли в Азербайджане***

***Аннотация***

*Целью исследования - является выработка обоснованных рекомендаций для совершенствования государственной промышленной политики, направленная на развития обрабатывающей промышленности. Сравнителный анализ и логическое обобщение использованы в качестве методологии. Выводы предшествующих исследований, посвщенной к теме государственного вмешательства в рыночные процессы составляют информационной базы статьи. Результаты исследования может использоватся в качестве научного источника при совершенствовании государственной промышленной политики, направленной на развития обрабатыващей отрасли. В результате исследования обобщены основные принципы развития государственной промышленной политики и объяснено их значение. Выявлено, что без государственного вмешательства развитие обрабатывающей промышленности в стране невозможно, и обобщены рекомендации по устранению недостатков государственного регулирования. Научная новизна и оригинальность работы состоит в предложении взаимосвязанных и взаимодополняющих рекомендаций для достжения эффективных результатов государственной промышленной политики на основе нового осмысления теоретической постулатов.*

***Ключевые слова:*** *государственное регулирование, государственная промышленная политика, фиаско рынка и государства.*

***Rukhsara Seyfullali***
***Ph.D. candidate, "Economics and Statistic" Department of the***
***Azerbaijan Technical University***

***Issues of improving the state policy for the development of the manufacturing industry in Azerbaijan***

***Abstract***

*The purpose of the study is to develop reasonable recommendations for improving the state industrial policy aimed at developing the manufacturing industry. Comparative analysis and logical generalization are used as a methodology. The conclusions of previous studies devoted to the topic of state intervention in market processes constitute the information base of the article. The results of the study can be used as a scientific source for improving the state industrial policy aimed at the development of the manufacturing industry. As a result of the study, the main principles of the development of the state industrial policy are summarized and their significance is explained. It is revealed that without state intervention the development of the manufacturing industry in the country is impossible, and recommendations are summarized for eliminating the shortcomings of state regulation. The scientific novelty and originality of the work lies in the proposal of interrelated and complementary recommendations for achieving effective results of the state industrial policy based on a new understanding of the theoretical postulates.*

***Key words:*** *state regulation, state industrial policy, markets and the states failures.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 09.11.2022.***
***Çapa qəbul olunub: 17.11.2022.***